*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 7 avqust 2019-cu il № 61 (2378) Qiyməti 30 qəpik


# Bakıda "Dəniz Kuboku-2019" beynəlxalq müsabiqəsinin təntənəli açılış mərasimi keçirilib



*Avqustun 5-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "Beynəlxalq Ordu Oyunları-2019" çərçivəsində Bakıda təşkil edilən "Dəniz Kuboku-2019" beynəlxalq müsabiqəsinin təntənəli açılış mərasimi keçirilib.*

Tədbirdə Müdafiə Nazirliyinin rəhbərliyi, veteranlar, hərbçilər, iştirakçı dövlətlərdən başqa müsabiqədə müşahidəçi qismində Türkiyə, Pakistan, Səudiyyə Ərəbistanı, Bəhreyn və Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələrinin nümayəndələri, xarici ölkələrin Azərbaycanda akkreditə olunmuş hərbi attaşeləri və digər qonaqlar iştirak ediblər.

(Ardı 3-cü səhifədə)

AZƏRBAYCAN ORDUSU

# Azərbaycanın Müdafiə naziri “Beynəlxalq Ordu Oyunları-2019” yarışlarının açılış mərasimində iştirak edib

*Moskva şəhərində səfərdə olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov avqustun 3-də Alabino hərbi poliqonunda təşkil edilən "Beynəlxalq Ordu Oyunları-2019" yarışlarının təntənəli açılış mərasimində iştirak edib.*




Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Müdafiə naziri həmçinin Bütün Dünya Sülhməramlılarına həsr edilmiş heykəltaraşlıq kompozisiyasının açılış mərasimində iştirak edib.

Sonra general-polkovnik Zakir Həsənov "Səhra mətbəxi" müsabiqəsinin iştirakçı ölkələrinin milli mətbəxlərinin xüsusiyyətləri ilə tanış olub və "Tank biatlonu" müsabiqəsinin birinci mərhələsinin çıxışını izləyib.

Qeyd edək ki, hərbçilərimiz ölkəmizdə keçirilən "Dəniz kuboku" ilə yanaşı, Rusiyada "Tank biatlonu" və "Səhra mətbəxi", Qazaxıstanda "Artilleriya atəşinin ustaları", Belarusda "Snayper həddi" və Özbəkistanda "Hərbi-tibbi estafet" müsabiqələrində iştirak edirlər.

# “Beynəlxalq Ordu Oyunları-2019” yarışlarında Azərbaycan ekspozisiyası maraqla izlənilir

*Moskvada səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov "Beynəlxalq Ordu Oyunları-2019" yarışlarında iştirak edən ölkələrin nümayiş etdirdikləri tarix, mədəniyyət, incəsənət və milli mətbəx nümunələri ilə tanış olmaq üçün Alabino poliqonundakı "Dostluq Evi"ndə olub.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycanın Müdafiə naziri ilə birgə Rusiya Federasiyasının Müdafiə naziri ordu generalı Sergey Şoyqu və digər qonaqlar sərginin Azərbaycan bölməsində ölkəmizin tarixi, mədəniyyəti, adət-ənənələri və məişətinə aid ekspozisiyalara baxış keçiriblər.

Müdafiə naziri, eyni zamanda, "Səhra mətbəxi" müsabiqəsində iştirak edən hərbçilərimizlə də görüşüb.

Məlumat verilib ki, nümayiş etdirilən ekspozisiyalar qonaqların yaxından tanış olmaları üçün yarışların sonunadək sərgilənəcək. Azərbaycan komandası da daxil olmaqla müxtəlif ölkələrin hərbi aşpazları tərəfindən hər gün yarış iştirakçılarına və qonaqlara yüzlərlə milli mətbəx nümunələri təqdim edilir.

Ölkəmizin ekspozisiyasını maraqla izləyən çoxsaylı qonaqlar Azərbaycanın hərbi aşpazlarının hazırladıqları təamların dadına baxırlar.



# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***5 avqust 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 19 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Quşçu Ayrım, Məzəm kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi, Ağbulaq kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləburt, Ağdam rayonunun Cəvahirli, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***6 avqust 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Aşağı Əskipara, Qızılhacılı kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Cəvahirli, Xocavənd rayonunun Kuropatkino, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Avqustun 1-dək Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsait

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli 755 nömrəli Fərmanı ilə təsdiq edilmiş Silahlı Qüvvələrə Yardım Fonduna cari il avqustun 1-dək 101.775.225,87 AZN, 213.577,88 ABŞ dolları, 17.266,0 avro və 5000,0 rubl vəsait daxil olub.

# Hərbi qulluqçulara elmi dərəcəyə görə verilən əlavələr gəlir vergisindən azaddır

*Elmi və elmi-pedaqoji fəaliyyət sahəsində çalışan, elmi dərəcəsi olan hərbi qulluqçulara elmlər doktoru və ya fəlsəfə doktoru elmi dərəcələrinə görə Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Elmi və elmi-pedaqoji fəaliyyət sahəsində çalışan elmi dərəcəsi və elmi adı olan şəxslərin vəzifə maaşlarına elmi dərəcələrə və elmi adlara görə ödənilən əlavələrin məbləğinin müəyyən edilməsi haqqında" 2017-ci il 14 iyun tarixli Qərarına əsasən ödənilən əlavələrin məbləği vəzifə maaşını təşkil etmədiyindən gəlir vergisindən azaddır.*

Vergilər Nazirliyinin Media və kommunikasiya mərkəzindən AZƏRTAC-a bildirilib ki, bu Qərarda göstərilən əlavələr vəzifə maaşını təşkil etmir, lakin qanunvericilikdə nəzərdə tutulmuş bütün hallarda orta aylıq əmək haqqının hesablanmasında nəzərə alınır.

Həmçinin nəzərə çatdırılıb ki, dövlət büdcəsindən maliyyələşən müəssisə və təşkilatlarda çalışan işçilərə elmi dərəcəyə və elmi ada görə aylıq vəzifə maaşlarına müəyyən edilən əlavələr dövlət büdcəsinin xərclərində həmin müəssisə və təşkilatlar üçün nəzərdə tutulan müvafiq vəsaitlər hesabına ödənilir.

# Bakıda "Dəniz Kuboku-2019" beynəlxalq müsabiqəsinin təntənəli açılış mərasimi keçirilib

(Əvvəli 1-ci səhifədə)

Mərasimin aparıcıları Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani, Rəna Qurbanova və Mixail Sklyamin Azərbaycanda



keçirilən bu yarışın əhəmiyyətini yüksək dəyərləndiriblər. Aparıcılar "Dəniz Kuboku-2019"un Xəzəryanı ölkələr arasında əməkdaşlığın inkişafında rolundan danışıblar.

Sonra "Dəniz Kuboku-2019" müsabiqəsinin hakimlər briqadası və komandalar mərasimə dəvət olunub.

Müsabiqə iştirakçıları - Rusiya Federasiyası Xəzər flotiliyasının, İran İslam Respublikasının, Qazaxıstan Respublikasının və Azərbaycan Respublikasının Hərbi Dəniz Qüvvələrinin komandaları dövlət bayraqları altında və hərbi orkestrin müşayiəti ilə meydana daxil olublar. Mərasimdə müsabiqəyə ev sahibliyi edən Azərbaycanın Dövlət himni ifa edilib, üçrəngli bayrağı qaldırılıb.

Beynəlxalq Ordu Oyunlarının və "Dəniz Kuboku-2019" müsabiqəsinin bayraqları, eləcə də müsabiqənin baş mükafatı - kubok meydana gətirilib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev mərasim iştirakçılarını və qonaqları salamlayıb, onlara Müdafiə nazirinin təbrikini çatdırıb. Nazir müavini bildirib ki, Beynəlxalq Ordu Oyunları hərbi əməkdaşlığın, hərbçilər arasında dostluğun möhkəmləndirilməsi, peşəkarlığın daha da artırılması məqsədinə xidmət edir. Azərbaycan Ordusu Rusiya Federasiyası Müdafiə Nazirliyinin təşəbbüsünə qoşularaq müxtəlif yarışlarda uğurla iştirak edir. Hər il bu yarışlara maraq artır və onun coğrafiyası daha da genişlənir. Builki Beynəlxalq Ordu Oyunları 10 dövlətin ərazisində, eləcə də Azərbaycanda keçirilir. 32 müsabiqədə 5 mindən artıq hərbçi gücünü sınayır.

General-leytenant K.Vəliyev deyib: "Artıq üçüncü ildir ki, Xəzər dənizindəki Azərbaycan ərazi sularında yarışırsınız. Xəzər dənizi tarixən sahillərində yaşayan bütün xalqların ümumi sərvəti olub. Dostluq, qardaşlıq dənizi olan Xəzərin təhlükəsizliyini təmin etmək hər birimizin borcudur. Əminəm ki, "Dəniz Kuboku" müsabiqəsi ölkələrimiz arasında qarşılıqlı əlaqələrin, əməkdaşlığın daha da güclənməsinə öz töhfəsini verəcək. İnanıram ki, yarışlar hamınızın yaddaşında silinməz iz buraxacaq, Azərbaycandan xoş təəssüratlarla ayrılacaq və bu diyara qayıtmaq arzusu ilə yaşayacaqsınız. Sizi bir daha səmimi qəlbdən salamlayır, komandalara yüksək nəticələr və uğurlar arzulayıram. Hansı ölkənin komandasının birinci yeri tutmasından asılı olmayaraq bizim dostluğumuz, qardaşlığımız, həmrəyliyimiz qələbə çalacaq".



Müdafiə nazirinin müavini "Dəniz Kuboku" beynəlxalq müsabiqəsini açıq elan edib.



Mərasimdə incəsənət ustalarının, Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin kollektivinin, iştirakçı ölkələrin və Rusiya Federasiyasının mahnı və rəqs ansambllarının iştirakı ilə teatrlaşdırılmış kütləvi bədii proqram təqdim olunub.

"Dəniz Kuboku-2019" beynəlxalq müsabiqəsinin açılışına həsr olunmuş təntənəli mərasimin ssenari müəllifi və quruluşçu rejissoru Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbanidir.

Qeyd edək ki, Azərbaycan hərbçiləri avqustun 3-dən 17-dək 10 dövlətin ərazisində keçirilən "Beynəlxalq Ordu Oyunları-2019" yarışlarında ölkəmizi təmsil edirlər.

Azərbaycan hərbçiləri ölkəmizdə "Dəniz Kuboku", Rusiyada "Tank biatlonu" və "Səhra mətbəxi", Qazaxıstanda "Artilleriya atəşinin ustaları", Belarusda "Snayper həddi" və Özbəkistanda təşkil olunan "Hərbi-tibbi estafet" müsabiqələrinə qatılıblar.

"Dəniz Kuboku-2019"-da hərbi dənizçilər "Artilleriya atışlarının yerinə yetirilməsi", "Gəminin dayanıqlığı uğrunda mübarizə və xilasetmə hazırlığı" və "Dəniz hazırlığı" üzrə mərhələlərdə güclərini sınayaraq ən yaxşı heyətləri müəyyən edəcəklər.

Türkiyə, Pakistan, Səudiyyə Ərəbistanı, Bəhreyn və Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələrinin nümayəndələri "Dəniz Kuboku-2019" müsabiqəsində müşahidəçi qismində iştirak edirlər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# "Dəniz Kuboku-2019"

"Dəniz Kuboku-2019" müsabiqəsində iştirak edən dövlətlərin nümayəndələri üçün mədəni proqram təşkil olunub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycana müxtəlif ölkələrdən gələn hərbi dənizçilər proqram çərçivəsində Bakı şəhərinin görməli yerlərində olub, tarixi abidələri ziyarət ediblər.

Paytaxtımızın gözəlliyi, müasir tikililər və aparılan quruculuq işləri qonaqlarda xoş təəssüratlar oyadıb.

* * *

Avqustun 2-də "Dəniz Kuboku-2019" beynəlxalq müsabiqəsində iştirak edən komandaların nümayəndələri dənizdə tapşırıqların yerinə yetiriləcəyi rayonlara baxış keçiriblər.

Komandaların rəhbər heyəti ilə müsabiqənin keçirilməsi qaydaları, təhlükəsizlik və digər təşkilati məsələlərlə bağlı ilkin təlimat da keçirilib. Dənizdə gəmilərin qarşılıqlı fəaliyyəti və rabitə əlaqəsi müəyyənləşdirilib, o cümlədən müsabiqənin çalışmaları üzrə naviqasiya və taktiki hesablamalar da aparılıb.

* * *

Azərbaycan Hərbi Dəniz Qüvvələrinin bazasında "Dəniz Kuboku-2019" müsabiqəsinin püşkatma mərasimi keçirilib və hakimlərə sertifikatlar təqdim olunub.

Əvvəlcə müsabiqənin təşkilatçıları tərəfindən hakimlərə verdikləri ixtisas məqbullarının nəticələrinə görə qol sarğısı və hakimlik hüququ verən sertifikatlar təqdim edilib.

Sonra müsabiqənin mərhələ və epizodlarının icrası üzrə püşkatma mərasimi keçiriləcək yarışacaq komandaların növbə üzrə sıralanması müəyyənləşdirilib.

Müsabiqənin əsas hissəsində hərbi dənizçilər "Artilleriya atışlarının yerinə yetirilməsi", "Gəminin dayanıqlığı uğrunda mübarizə və xilasetmə hazırlığı" və "Dəniz hazırlığı" üzrə mərhələlərdə güclərini sınayaraq ən yaxşı heyətləri müəyyən edəcəklər.

* * *

Avqustun 5-də Bakıda keçirilən "Dəniz Kuboku-2019" beynəlxalq müsabiqəsinin başlanması ilə əlaqədar mətbuat konfransı keçirilib.

İştirakçı ölkələrin nümayəndə heyətlərinin rəhbərləri, hakimlər komissiyasının üzvləri, yerli və xarici jurnalistlərin iştirakı ilə keçirilən mətbuat konfransında məlumat verilib ki, müsabiqə zamanı hərbi dənizçilər "Artilleriya atışlarının yerinə yetirilməsi", "Gəminin dayanıqlığı uğrunda mübarizə və xilasetmə hazırlığı" və "Dəniz hazırlığı" üzrə mərhələlərdə güclərini sınayaraq ən yaxşı heyətləri müəyyən edəcəklər.

Bundan əlavə, mətbuat konfransı zamanı iştirak edən heyətlər tərəfindən döyüş hazırlığı poliqonlarına çıxış, müsabiqənin mərhələ və epizodlarının yerinə yetirilməsi üzrə məşqlərin keçirilməsi haqqında ətraflı məlumat verilib.

Qeyd olunub ki, bu il "Dəniz Kuboku-2019" müsabiqəsində müşahidəçi qismində Türkiyə, Pakistan, Səudiyyə Ərəbistanı, Bəhreyn və Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələrinin nümayəndələri də iştirak edəcəklər.

Sonda mətbuat nümayəndələrinin sualları cavablandırılıb.

# "Yarışların davamlı keçirilməsi komandaların döyüş hazırlığına öz təsirini göstərir"



*Dövlətlərarası hərbi əməkdaşlığın daha da möhkəmləndirilməsi, hərbi xidmətin nüfuzunun artırılması, döyüş imkanlarının nümayiş etdirilməsi, şəxsi heyətin peşəkarlığının və döyüş qabiliyyətinin yüksəldilməsi, dostluq və rəqabət gücünün daha da artırılması baxımından "Beynəlxalq Ordu Oyunları" mühüm əhəmiyyət kəsb edir. Beşinci ildir ki, keçirilən "Beynəlxalq Ordu Oyunları" həm müxtəlif ölkələrdən gələn hərbçilərin peşəkarlıq səviyyəsinin yüksəlməsinə müsbət təsir göstərir, həm də dövlətlər arasındakı qarşılıqlı münasibətləri möhkəmləndirir.*

"Beynəlxalq Ordu Oyunları"nda təmsil olunan Azərbaycan Respublikası Müdafiə Nazirliyinin komandaları xalqımızı və ordumuzun şəxsi heyətini uğur və nailiyyətləri ilə sevindirir. Azərbaycan hərbçilərinin "Beynəlxalq Ordu Oyunları" çərçivəsində keçirilən yarışlarda uğurlu çıxışı Azərbaycan Ordusuna ölkə rəhbərliyi səviyyəsində göstərilən diqqət və qayğının nəticəsidir.

Bu il də "Beynəlxalq Ordu Oyunları" çərçivəsində keçirilən "Dəniz Kuboku-2019" müsabiqəsinə Azərbaycan ev sahibliyi edir. Yarış öncəsi fürsətdən istifadə edib "Dəniz Kuboku-2019" müsabiqəsində iştirak edən qonaqların fikirlərini öyrənirik. Rusiya Federasiyası Hərbi Dəniz Donanmasının döyüş hazırlığı şöbəsi rəisinin müavini birinci dərəcəli kapitan Dmitriy Korovin bildirdi ki, Azərbaycanda ən əziz və doğma insanlar kimi qarşılandıq. "Bu gün Azərbaycanın paytaxtı Bakıda olmaq mənim üçün çox xoşdur. Azərbaycan, xüsusən də paytaxt Bakı mətbuatda yazılanlardan daha gözəldir. Bakının gözəlliyi, insanların mehribanlığı, qonaqpərvərliyi, nəzakətliyi, qayğıkeşliyi və milli mətbəxiniz bizi heyran edir. Üçüncü ildir ki, bu gözəllikləri seyr edirik, artıq Azərbaycan mənim üçün doğmalaşıb."

D.Korovin onu da dedi ki, bu il də Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandanlığı çox ağır və məsuliyyətli bir işin öhdəsindən layiqincə gəliblər. "Dəniz Kuboku-2019" müsabiqəsini yüksək səviyyədə təşkil etmək çox çətindir. Buna baxmayaraq, Azərbaycan Hərbi Dəniz Qüvvələri yarışları hər il daha yüksək səviyyədə təşkil edir.

Həmsöhbətim komandaların döyüş hazırlığı məsələlərinə də toxundu: "Yarışların davamlı keçirilməsi komandaların döyüş hazırlığına öz təsirini göstərir. Rəqabət haqqında danışarkən deyə bilərəm ki, hərbi personalın mərkəzləşdirilmiş qaydada hazırlanması üçün təlimlər keçirilir. Təşkil olunan bu yarışlar iştirakçılar arasında rəqabəti, həyəcanı və mübarizə əzmini daha da artırır. Bu da dənizçilərin döyüş hazırlıqlarını yüksəltməklə yanaşı, yarışı daha maraqlı edir."

"Dəniz Kuboku-2019" yarışlarında hansı komandanın qalib olacağı sualına cavab olaraq D.Korovin qeyd etdi ki, yarışlar zamanı ölkələrin komandaları elə bir təcrübə və bacarıq əldə ediblər ki, əvvəlcədən hansı komandanın qalib gələcəyini təxmin etmək mümkün deyil. Hal-hazırda dənizçilər yarışa fiziki, texniki, nəzəri, psixoloji və taktiki cəhətdən hazırdırlar.

Söhbətimizin sonunda natiq "Dəniz Kuboku-2019" müsabiqəsində iştirak edən hər bir komandaya uğurlar arzuladı. "Biz də digər komandalar kimi çalışacağıq ki, birinciliyi əldə edək. Əsas odur ki, güclü olan komanda qalib olsun. Bütün komandalara uğurlar arzulayıram."



Rusiya nümayəndə heyətinin rəhbəri, Xəzər Donanmasının komandir müavini, 1-ci dərəcəli kapitan Sergey Yekimov da Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələrinin "Dəniz Kuboku-2019" beynəlxalq yarışını keçirməyə hazırlığını yüksək qiymətləndirdi. "Üçüncü dəfədir ki, sizinlə Azərbaycan Respublikasında görüşürük və qeyd etməliyik ki, ötən ildə olduğu kimi yarışın təşkili ən yüksək səviyyədədir. Ev sahibi komandanın tədris material bazasının imkanları tam hazırdır və bu da bütün ekipajlara həm hazırlıq mərhələsində, həm də yarış zamanı öz bacarıqlarını layiqincə nümayiş etdirməyə imkan verir. Bütün iştirakçılara uğurlar diləyirəm."

Qeyd edək ki, "Dəniz Kuboku-2019" yarışı avqustun 15-dək Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələrinin bazasında keçiriləcək.

Yarışda Rusiya Federasiyası, Qazaxıstan Respublikası, Azərbaycan Respublikası və İran İslam Respublikasının komandaları iştirak edir.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# "Beynəlxalq Ordu Oyunları-2019"









"Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində Qazaxıstanda keçiriləcək "Artilleriya atəşinin ustaları" müsabiqəsində istifadə ediləcək silah və texnikaya baxış keçirilib.

Silah və döyüş texnikası qəbul edildikdən sonra artilleriyaçılarımız müsabiqənin mərhələlərinin keçilməsi üsullarının məşq etdirilməsinə başlayıblar.

Püşkatmanın nəticələrinə əsasən, birinci mərhələdə artilleriyaçılarımız Rusiya, Venesuela və Zimbabve komandaları ilə yarışacaqlar.

Eyni zamanda, "Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində Qazaxıstanda keçirilən "Artilleriya atəşinin ustaları" müsabiqəsinin iştirakçıları üçün mədəni-kütləvi tədbir də təşkil olunub.

Qazaxıstan Respublikasının incəsənət xadimlərinin iştirakı ilə hərbi qulluqçulara maraqlı konsert proqramı təqdim edilib.

"Beynəlxalq Ordu Oyunları - 2019" yarışları çərçivəsində Qazaxıstanda keçirilən "Artilleriya atəşinin ustaları" müsabiqəsinin iştirakçıları mərhələlərə hazırlıq məqsədilə məşqlər icra edirlər.

Yarışlarda iştirak etmək üçün təqdim edilən silahlara texniki baxış keçirən artilleriyaçılarımız təhlükəsizlik qaydaları, növbəti mərhələnin şərtləri və atış nöqtələrinin texniki imkanları ilə tanış olublar.

Hazırlıq prosesini yekunlaşdıran komandamız atıcı silahlar, qumbaraatan və minaatanlardan sınaq atışlarını yerinə yetiriblər.

* * *

Azərbaycan Ordusunun hərbi həkimləri "Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində avqustun 4-dən 15-dək Özbəkistanda keçiriləcək "Hərbi-tibbi estafet" müsabiqəsinin püşkatma mərasimində iştirak ediblər.

Müsabiqənin püşkatmasının nəticələrinə əsasən, hərbi həkimlərimiz 11-ci nömrədə yarışacaqlar.

Azərbaycan Ordusunun hərbi həkimlərinin də iştirakı etdiyi "Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində Özbəkistanda keçirilən "Hərbi-tibbi estafet" müsabiqəsinin təntənəli açılış mərasimi baş tutub.

Rəsmi hissədən sonra Özbəkistan Respublikasının mədəniyyət xadimlərinin iştirakı ilə hərbi həkimlər və digər qonaqlar üçün maraqlı konsert proqramı təqdim olunub.

* * *

"Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində Belarusda keçirilən "Snayper həddi" müsabiqəsinin açılış mərasimi olub.

Təntənəli mərasimdə yarışlara qatılan komandaların üzvləri, nümayəndə heyətləri və rəsmi şəxslər iştirak edib.

Sonda Belarus mədəniyyət işçilərinin iştirakı ilə maraqlı konsert proqramı təqdim edilib.

Mərasimdən sonra Belarusun Brest təlim poliqonunda keçirilən "Snayper həddi" müsabiqəsində müxtəlif epizodlar icra olunur.

Avqustun 17-dək davam edəcək müsabiqədə Azərbaycan snayperləri öz ustalıqlarını nümayiş etdirirlər.

"Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində keçirilən "Snayper həddi" müsabiqəsində iştirak edən snayperlərimiz fərdi yarışda Rusiya, Qırğızıstan, Venesuela və Şri-Lanka hərbçiləri ilə hədəfin üzərində yerləşən 2 santimetr diametri olan dairəyə 300-600 metrdən atəş açmaq üzrə bacarıqlarını sınayıblar.

Snayperlərimiz növbəti mərhələyə hazırlıq məqsədilə sınaq atışları yerinə yetiriblər.

Hazırlıq dövründə komandalar atışların sıxlığı və sərrastlığına nail olmaq məqsədilə təhkim edilən silahlardan atışlar edir, mərhələnin xüsusiyyətləri, tapşırıqların yerinə yetirilmə hədləri, eləcə də ərazinin maddi-texniki bazası ilə tanış olurlar.

* * *

"Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində keçirilən və Azərbaycan hərbi aşpazlarının da iştirak etdiyi "Səhra mətbəxi" müsabiqəsinə start verilib.

Müsabiqənin hakimləri hərbi aşpazlar tərəfindən hazırlanan müxtəlif təamların dadına baxaraq qiymətləndirməni həyata keçirir.

Yarışlar çərçivəsində "Dostluq Evi"ndə Azərbaycanın hərbi aşpazları tərəfindən hazırlanan müxtəlif milli yeməklərimiz yarış iştirakçılarına və qonaqlara təqdim edilir.

"Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində keçirilən "Səhra mətbəxi" müsabiqəsinin iştirakçılarının birinci mərhələyə hazırlıq prosesi yekunlaşıb.

Azərbaycan hərbi aşpazları silahdan yoxlama atışları etməklə çalışmaları yerinə yetirmək üçün silahları sıfırlayıblar.

Müsabiqənin bu mərhələsində iştirakçı ölkələrin nümayəndələri avtomatla 100 metr məsafədə hərəkətsiz hədəfi 3 patron ilə vurmalıdır. İstifadə ediləcək silahlara baxış keçirilərək qəbul edildikdən sonra aşpazlarımız müsabiqənin mərhələlərinin icra üsullarını məşq etməyə başlayıblar.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Şəhid gizirin anım mərasimi keçirildi



*Avqustun 2-də Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzində şəhid gizir Pərvin Əliyevin anım mərasimi keçirildi. Mərasimdə millət vəkili Qənirə Paşayeva, Qafqaz Müsəlmanları İdarəsinin nümayəndəsi Hacı Ramil Bədəlov, Milli Qəhrəman Samid İmanovun atası Gülağa İmanov, şəhidin ailə üzvləri, döyüş yoldaşları, Qarabağ veteranları, qaziləri və şəhidin xatirəsinə həsr olunmuş "Təki Vətən sağ olsun" sənədli filminin yaradıcı heyəti iştirak etdilər.*

Anım mərasimində xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Dövlət himni səsləndirildi.

Mərasimdə çıxış edən H.Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi vəzifəsini icra edən mayor İlkin Qayıbov torpaq, Vətən uğrunda həyatını qurban verən Azərbaycanın igid oğul və qızlarının xatirəsinin hər zaman əziz tutulduğunu və onların adlarının əbədiləşdirilməsi istiqamətində dövlətimiz tərəfindən böyük işlərin aparıldığını dedi: "Qarabağ şəhidlərinə, əlillərinə və veteranlarına dövlət tərəfindən yüksək səviyyədə qayğı göstərilməsi ulu öndər Heydər Əliyevin fəaliyyət prinsipində əsas yer tuturdu. Bu gün həmin prinsiplər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən ən yüksək səviyyədə yerinə yetirilir.

Mayor İ.Qayıbov şəhid gizir Pərvin Əliyevin oğlu Riyad Əlilini Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olması münasibətilə təbrik etdi və gələcəkdə xalqımıza, Vətənimizə, dövlətimizə sədaqətli peşəkar zabit olacağını, atasının şərəfli ömür yolunu davam etdirməyi arzuladı.



"Təki Vətən sağ olsun" sənədli filminin ideya və ssenari müəllifi Mehriban Sadıqova qeyd etdi ki, şəhidlik - ölümün ölümsüzlük zirvəsi və insanlığın baş əydiyi ən ali məqamdı: "Bu məqamı vəsf edə bilmək üçün sözlər də acizdir. Vətən adlı bir məmləkətə olan sevgi əsgərlərimizi canlarını torpağa sipər etməyə sövq etdi. 2014-cü il avqustun 1-dən 3-dək erməni kəşfiyyat-diversiya qrupunun ön xətt bölmələrimizə hücumunun qarşısı qorxmaz, mərd hərbi qulluqçularımız tərəfindən alındı. Onların sırasında gizir Pərvin Əliyev də var idi. Azərbaycan Prezidenti İlham Əliyevin 24 iyun 2015-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanmasında xüsusi xidmətlərinə, xidməti vəzifələrini və hərbi hissənin qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiyinə görə, Silahlı Qüvvələrin hərbi qulluqçusu gizir Pərvin Əliyev ölümündən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunub. Şəhidlərimiz daima qəlbimizdə yaşayacaq, onlar heç zaman unudulmayacaqlar."

Anım mərasimi şəhid gizirin həyat və döyüş yolundan bəhs edən "Təki Vətən sağ olsun" sənədli filmin nümayişi ilə davam etdi.



Millət vəkili Qənirə Paşayeva çıxışına Xalq şairi Məmməd Arazın məşhur misraları ilə başladı: "Vətən mənə oğul desə nə dərdim, Mamır olub qayasında bitərdim. Hər kəs Vətənə layiqli və əsl övlad olmalı, onun yolunda canından, qanından keçməyi bacarmalıdır. Pərvin kimi oğullar adını xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıb. Şəhidlərimizin belə anım mərasimlərinin keçirilməsi və onların tanıdılması çox vacibdir. Belə tədbirlər gənclərimizin hərbi vətənpərvərlik tərbiyəsində böyük rol oynayır. Onların şərəfli ömür yolu hər bir gəncə nümunədir."

Qafqaz Müsəlmanları İdarəsinin nümayəndəsi Hacı Ramil Bədəlov fədakarlığın insan həyatında ən ali pillə olduğunu qeyd edərək bildirdi ki, şəhidlər ölmür, onlar ən uca məqamda - Allahın dərgahındadırlar. "Hər kəsə də bu müqəddəslik qismət olmur. Hər kəsə də şəhid ömrü yaşamaq qismət olmur. Allahdan bütün şəhidlərimizə rəhmət diləyirəm."

Ehtiyatda olan zabit Hikmət Ağayev, Milli Qəhrəman Samid İmanovun atası Gülağa İmanov, şəhid gizir Pərvin Əliyevin anası Rəfiqə Əliyeva və həyat yoldaşı Zülfiyyə Əliyeva çıxışlarında şəhid ailələrinə göstərilən dövlət qayğısından bəhs edərək hər bir gəncə Vətəni, torpağı sevməyi, xalqın dar günündə ona dayaq olmağı arzuladılar.

Anım tədbiri Azərbaycan Ordusuna, Azərbaycan əsgərinə, şəhidlərimizin əziz xatirəsinə həsr olunmuş hərbi vətənpərvərlik ruhlu mahnı və şeirlərin ifası ilə başa çatdı.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

---

*Gənc zabitlərimiz*

# Lələtəpə, Bayraqtəpə, Günnüt və Böyük Qələbə

Ön xətdə zabit İsaq Orucovla da söhbətləşmişdik. Hərbi xidmətə münasibəti haqqında fikirləri diqqətimi çəkmişdi. "Müharibə şəraitində hərbi xidmət tərxislə tamamlanmamalıdı", - demişdi. Bu fikir ətrafında mükaliməşməmiz olmuşdu. İsaq israrla demişdi ki, tərxis olunan əsgərlər Böyük Qələbədən sonra hərbçi məsuliyyətiylə işğaldan azad edilmiş kəndlərimizin yenidən qurulmasında iştirak etməlidi. Mənə elə gəlir ki, buna bircə çağırış kifayət edəcək...

Zabit İsaq Orucovun dünya duyumu könlümə yatdı. Onun haqqında daha çox öyrənmək istədim...

Uşaqlıqda mütaliə həvəsi olub. Sonralar qəzetlərə də meyl göstərib. Televiziya verlişlərini də maraqla izləyib. Bunlar məktəbdə müəllimlərinin, evdə valideynlərin söhbətlərinin məntiqi davamı olurmuş; İsaqın düşüncələrində bir heysiyyət gərirmiş qollarını. Ağdaban, Malıbəyli, Meşəli, Bağanıs-Ayrım, Xocalı faciələri haqqında məlumatlanmışdı. Səkkizinci sinfi bitirəndə qərarını atasına bildirib:

- Hərbçi olmaq istəyirəm. O gün televizorda elan verdilər. Cəmşid Naxçıvanski adına Hərbi Liseydə oxumağı qərara almışam.

Atası İsaqın qətiyyətini görüb, istəyinin dönməzliyini hiss edib. Xeyir-dua verib oğluna...

İsaq Cəmşid Naxçıvanski adına Hərbi Liseyi bitirdi, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil aldı.

- Liseydə ilk günlər, ilk həftələr çətinliyim olurdu. Hərbi intizama alışa bilmirdim. Komandirlərimin dəyərli məsləhətləriylə qısa müddətdə çətinlikləri adlada bildim. Ondan sonra səhv etmədiyimi anladım. İlk dəfə onda qürurlandım: mən də hərbçi olacam, mən zabit olacam!

Ali Hərbi Məktəbdə daha fəal olmağa çalışırdım. Bilmədiklərimi müəllimlərimizdən, zabitlərimizdən öyrənirdik. Orta məktəbdə oxuyanda müəllimlərimizdən eşitdiyim bir fikri heç zaman unutmurdum: "Bilməmək ayıb deyil, bilməyib soruşmamaq ayıbdır".



İsaq ötənləri sevgilərlə xatırlayırdı. Mənə elə gəlirdi ki, gənc zabit o illərin hələ də hər gününü xatırlaya-xatırlaya yenidən yaşayır: mühazirələrdən, seminarlardan, çöl təlimlərindən, kursant dostluğundan, asudə vaxtlarda söhbətlərinin axarından,... danışdıqca Azərbaycan Ordusunun zabitlərinin necə formalaşması haqqında təəssüratlarım daha da dərinləşirdi.

İsaq Orucov 2015-ci ilin iyununu da böyük qürrəylə, sevinclə xatırladı - həmin gün zabit rütbəsi alanların sırasında o da vardı:

- Buraxılış günü digər kursantlar kimi mən də ikili duyğular yaşadım. Sevincimiz aşıb-daşırdı. İllərlə arzuladığımız günün sevincini valideynlərimizlə, ictimaiyyət nümayəndələriylə birgə yaşayırdıq. Onda Cəmşid Naxçıvanski adına Hərbi Liseyə gedəndə atamın dediklərini yenə xatırladım: bu peşəni ürəkdən sevirsənsə, uğurun xeyir olsun. Mən zabit olmağımla çox qürurluydum. O qürur illər nədi, aylardan sonra daha da dönməzləşir. Dərk edirik ki, hərbçi Vətənə digər peşə sahibləriylə müqayisədə daha gərəklidir...

Zabit İsaq Orucovun timsalında Azərbaycan Ordusunun bütün gənc zabitlərinin düşüncələrinin ifadəsini gördüm...

Gənc zabit dedi ki, ordumuz güclüdür. Bu güc 2016-cı ilin aprelində zəfər qazandı. Lələtəpədə, Bayraqtəpədə, Günnütdə bayraqlarımız bu gücə görə qürurla dalğalanır. Biz o zəfəri qazananların davamçıları olacağıq. Ali Baş Komandanın əmriylə döyüşəcəyik, torpaqlarımızı işğaldan azad edəcəyik...

İsaq Orucov dövlətin orduya qayğısından da söz açdı:

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamıyla hərbi qulluqçuların vəzifə maaşları artırıldı. Mən ön xətdə xidmət edən bütün zabit yoldaşlarım adından ölkə başçısına minnətdarlığımı bildirirəm...

Zabit İsaq Orucov dedi ki, əsgərlərimiz bütün əmr və göstərişləri böyük məsuliyyətlə yerinə yetirirlər. Bu, nümunəvi xidmət deməkdir. Biz qalib gələcəyik! Lələtəpə, Bayraqtəpə, Günnüt və Böyük Qələbə - Azərbaycan Ordusunun amalı budur!..

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

*Heç kim unudulmur*

# Hərbçilər şəhid ailələrini ziyarət ediblər

*Şəhidlərin xatirəsinin əbədiləşdirilməsi və şəhid ailələrinin hörmət və ehtiramla yad edilməsi məqsədilə Azərbaycan Ordusunda da silsilə tədbirlər keçirilir. Belə tədbirlər həm də ordu ilə ictimaiyyətin əlaqələrini möhkəmləndirir.*



Cənubi Qafqazın lider dövləti olan müstəqil Azərbaycan Respublikasının siyasət kursunun mühüm prioritetlərindən biri də dövlətimizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhid ailələrinə, həmçinin müharibə əlillərinə göstərilən böyük diqqət və qayğıdır. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərindən birini müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həllinə nail olunması, hər cür qayğı ilə əhatə olunması təşkil edir. Ölkədə əhalinin sosial rifahının artması, xüsusi ehtiyacı olan təbəqələrin sosial durumunun yaxşılaşdırılması üçün ardıcıl işlər aparılır.

Ümummilli lider Heydər Əliyev tərəfindən formalaşdırılan dövlət siyasətinə əsaslanaraq bu günlərdə general-mayor Mayis Bərxudarovun rəhbərliyi ilə bir qrup hərbi qulluqçu qoşunların təmas xəttinə yaxın kəndlərdə yaşayan Aprel döyüşləri zamanı şəhid olmuş Elnur Əliyev və Orxan Həmidovun ailəsini ziyarət edib. General-mayor M.Bərxudarov şəhidlərin ailə üzvlərinə Müdafiə Nazirliyinin rəhbərliyi və onlarla birlikdə xidmət etmiş hərbi qulluqçular adından başsağlığı çatdırıb, Ali Baş Komandanımızın rəhbərliyi ilə şəhidlərimizin qisasının alınacağını və düşmənə hər an layiqli cavab



veriləcəyini qeyd edib.

General-mayor M.Bərxudarov bildirib ki, bu gün Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclü ordusudur. "Ordumuz gücünü 2016-cı ilin Aprel döyüşlərində bir daha sübut etdi. Belə ki, Ermənistan ordusunun təxribatlarına cavab olaraq, ordumuz əks-hücum əməliyyatı ilə Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Bununla da xalqımıza qələbə sevinci yaşatdı. Ancaq təəssüf hissi ilə bildirmək istəyirəm ki, Elnur Əliyev və Orxan Həmidov kimi oğullarımızı da həmin döyüşlərdə itirdik. Bütövlükdə Aprel döyüşləri qəhrəmanlıq tariximizə qızıl hərflərlə yazıldı. Ən əsası odur ki, bu gün ordumuz qüdrətlidir, torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Bu gün Azərbaycan Ordusu dövlətimizin qüdrətinin nümunəsi olmaqla yanaşı, həm də xalqımızın iftixar yeridir. Zənnimcə, bütün bu uğurların təməlini ordumuza göstərilən böyük diqqət və qayğı təşkil edir. Ümumiyyətlə, ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə şəhid olmuş qəhrəman Vətən oğullarımızın ailələri, yaralanmış əsgər və zabitlərimiz dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunublar. Sizlər bir şəhid ailəsinin üzvləri, bizlər isə bir hərbi qulluqçu kimi Ali Baş Komandanımız tərəfindən Vətən keşikçilərinə yüksək diqqət və qayğı göstərildiyini hər an öz üzərimizdə hiss edirik".

Sonra hərbi qulluqçular Ermənistan tərəfinin təxribatı nəticəsində Füzuli rayonunun Alxanlı kəndində həlak olan Sahibə və Zəhra Quliyevaların yaxın qohumalarının, şəhidlərin ailə üzvlərinin yaşadıqları evə baş çəkib, onlarla çay süfrəsi arxasında söhbət ediblər. Söhbət zamanı şəhidin ailə üzvləri Azərbaycan Ordusunun qüdrətinə və qələbəsinə inamın böyük olduğunu qeyd edərək qoşunların təmas xəttinə yaxın ərazilərdə yerləşən yaşayış məntəqələrinin bölmələrimiz tərəfindən etibarlı müdafiə olunduğunu və əhalinin hərbçilərimizə yüksək etimad göstərdiyini bildiriblər.

Şəhidlərin ailə üzvləri şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısı İlham Əliyevə minnətdarlıqlarını bildiriblər. Qeyd ediblər ki, ölkə başçısı tərəfindən bu gün şəhid ailələrinə göstərilən diqqət və verilən qiymət yetişməkdə olan gənc nəslin vətənpərvərlik tərbiyəsinə bir nümunədir. Hərbi xidmətə gedənlər də qayğını görərək fikirləşirlər ki, onlar dövlətin diqqət və qayğısı ilə əhatə olunublar.

* * *

Azərbaycanın dövlət siyasətində prioritet məsələlərdən sayılan Qarabağ müharibəsi veteranları, əlilləri və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi daima məqsədyönlü səciyyə daşıyır. Dövlət quruculuğunda bu istiqamətdə atılan addımlar öz bəhrəsini verməkdədir. Ulu öndər Heydər Əliyevin çox həssaslıqla yanaşdığı əsas məsələlərdən biri şəhid ailələrinə, müharibə veteranlarına və əlillərinə dövlət qayğısının göstərilməsi olmuşdur. Məhz Ümummilli Liderimizin təşəbbüsü ilə 2001-ci ildə Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin təsis edilməsi də cəmiyyətdə bu qəbildən olan insanlara verilən ən böyük dəyər kimi qiymətləndirilir.

Bu gün ölkə rəhbəri İlham Əliyev tərəfindən dövlət quruculuğunda sosial siyasət məsələsi uğurla həyata keçirilir. Azərbaycanda müharibə veteranlarının, əlillərinin və şəhid ailələrinin sosial müdafiəsi daima gücləndirilir, onların problemləri qısa müddətdə öz həllini tapır. Ölkə Prezidenti mütəmadi olaraq müharibə veteranlarının, əlillərinin və şəhid ailələrinin sosial vəziyyətinin yüksəldilməsi məqsədilə fərman və sərəncamlar imzalayır. Respublikamızda hazırda bu istiqamətdə görülən işlər cəmiyyət tərəfindən təqdirəlayiq hal kimi qarşılanır. Onların sosial ehtiyaclarının dövlət tərəfindən ödənilməsi, həmçinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin və Qarabağ müharibəsi əlillərinin övladlarınının təhsil haqqından azad edilməsi bir daha təsdiqləyir ki, dövlət həssaslıqla yanaşdığı vətəndaşına diqqət və qayğısını heç bir zaman əsirgəmir. Hətta dövlətimiz bu insanların sosial rifah halının yaxşılaşdırılması və rahat yaşaması məqsədilə onları mənzil və minik avtomobilləri ilə təmin edir. Eyni zamanda, Azərbaycan Prezidentinin 2018-ci il 19 aprel tarixli Fərmanına uyğun olaraq ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə, ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə birdəfəlik ödənişin verilməsi bir daha dövlətimizin başçısının şəhid ailələrinə göstərdiyi diqqət və qayğısının bariz nümunəsidir.

Azərbaycan Ordusunda da şəhid ailələri, Qarabağ müharibəsi veteranları və əlilləri ilə vaxtaşırı görüşlər keçirilir, onların arzu və istəkləri dinlənilir. Belə görüşlərin təşkili silsilə xarakter daşıyır.

Bu günlərdə 2019-cu ilin təsdiq edilmiş planına uyğun olaraq, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin "Vətən uğrunda" səyyar-təşviqat qrupunun üzvləri respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda gecə-gündüz döyüş növbəsində dayanan, Vətənimizi göz bəbəyi kimi qoruyan hərbi qulluqçularımızın asudə vaxtlarının səmərəli təşkil edilməsi, onların ruh yüksəkliyinin və mənəvi-psixoloji hazırlığının artırılması məqsədilə ön xətt bölmələrimizdə olublar. Onlar döyüş növbəsi aparan hərbi qulluqçularımız qarşısında hərbi vətənpərvərlik ruhlu mahnılar, şeirlər səsləndiriblər, Vətən keşikçilərinə əyləncəli proqramlar təqdim ediblər və müxtəlif müsabiqələr, viktorinalar keçiriblər. Ön xətt bölmələrimizdə təşkil olunan viktorina və müsabiqələrin qaliblərinə xatirə hədiyyələri təqdim olunub.

Çay süfrəsi arxasında döyüşçülər "Əsgərə məktub" layihəsi barədə ətraflı müzakirələr aparıblar. Tələbə gənclərin və orta məktəb şagirdlərinin ön xətdə düşmənlə üzbəüz mövqelərdə dayanan hərbçilərimizə yazdıqları məktublar onların özlərinə çatdırılıb. Ön xətdə gecə-gündüz Vətənin keşiyində sayıqlıqla dayanan hərbçilərimiz qonaqlara apardıqları xidmət barədə qısa məlumat verərək, yaradılan yüksək məişət şəraiti ilə bağlı ürəkdolusu danışıblar.

Görüş zamanı şəxsi heyətə hərbi hissələrdə keçirilən tədbirlər haqqında hazırlanmış videoçarxlar təqdim edilib. Eyni zamanda, məktubları maraqla oxuyub onlara cavab yazan hərbçilərimiz video çəkiliş vasitəsilə də öz arzularını çatdırıblar.

Tədbirlər silsiləsini davam etdirən "Vətən uğrunda" səyyar-təşviqat qrupunun üzvləri "N" hərbi hissəsində xidmət edən qadın hərbi qulluqçularla birlikdə "Bizim milli yeraltı sərvətimiz torpaq altında yatan şəhidlərimizdir, yerüstü sərvətimiz isə qazilərimizdir..." layihəsini Gədəbəy və Tovuz rayonlarında uğurla həyata keçiriblər.

"Vətən uğrunda" səyyar-təşviqat qrupunun üzvləri və qadın hərbi qulluqçular şəhid ailələrini ziyarət edib, onlara mənəvi dəstək olublar, gətirdikləri hədiyyələri, sovqatları və məişət ləvazimatlarını şəhidlərin ailə üzvlərinə təqdim ediblər. Qadın hərbi qulluqçular hər bir şəhid ailəsinin evində qonaq olduğu müddətdə onlara qayğı ilə yanaşaraq, evin təmizlik işlərinə köməklik göstəriblər. Hərbi vətənpərvərlik ruhunda təşkil edilən layihənin üzvləri şəhid ailələrinin qayğıları və problemləri ilə yaxından maraqlanıb, onlarla geniş söhbətlər aparıblar. Hərbçiləri və layihə üzvlərini yüksək qonaqpərvərliklə qarşılayan şəhid ailələri onların gəlişlərindən sevindiklərini, daima dövlət tərəfindən diqqət və qayğı ilə əhatə



olunduqlarını qeyd ediblər. Atılan bu addımları əzizlərinin unudulmaması və onların daima diqqətdə saxlanması kimi dəyərləndiriblər.

Qadın hərbi qulluqçularımızın layihə ilə bağlı fikirlərini öyrənərkən bildirdilər ki, bu layihədə iştirak etdikləri üçün qürur duyurlar. "Dövlətimiz, xalqımız hər bir şəhid ailəsinə böyük qayğı ilə yanaşır. Şəhidlərimizin unudulmaması üçün adları əbədiləşdirilir, xatirə lövhələri vurulur, anım tədbirləri keçirilir. Hər bir şəhid ailəsi bizim üçün əzizdir. Onların yanında olmaq bizə mənəvi güc verir. Şəhid ailələrinə diqqət göstərmək hər birimizin mənəvi borcudur. Ordu və xalq arasında əlaqələrin daha da möhkəmlənməsində belə vətənpərvərlik yönümlü layihələrin keçirilməsi vacibdir".

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

Ordu və cəmiyyət

# "Respublika Xatirə Kitabı ən qiymətli ensiklopedik vətənpərvərlik abidəsidir"

*1992-ci ildən fəaliyyətə başlayan Respublika Xatirə Kitabı Redaksiyası tariximizin qiymətli, dəyərli səhifələrini özündə əks etdirir. Bu illər ərzində redaksiya heyəti hansı işlər görüb? Respublika Xatirə Kitabı Redaksiyasının baş redaktoru, şair Nəzakət Məmmədli ilə söhbətimiz bu haqda oldu.*



- İyirmi ildən çoxdur Respublika Xatirə Kitabı Redaksiyasında çalışıram. 1997-ci ildə Xatirə Kitabının 1-ci cildi kiril əlifbası ilə işıq üzü gördü. 2001-ci ilə qədər bu dəyərli kitabın 3 cildini buraxdıq. Hazırda Xatirə Kitabının 16-cı cildi nəşr olunur. Kiril əlifbası ilə nəşr olunan kitabları da latın əlifbası ilə yenidən çap etdik. Ümumiyyətlə, 20 cildliyin nəşri nəzərdə tutulub.

**- Xatirə Kitabında hansı dövrləri, hansı illəri əks etdirmisiniz?**

- Respublika Xatirə Kitabında 1941-1945-ci illərdən başlayaraq bütün müharibələr, münaqişələr, müstəqillik dövrləri, zorla cəlb edildiyimiz Qarabağ müharibəsi, torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuş oğul və qızlarımızın adları, döyüş yolları əbədiləşdirilib. Düzdür, keçmiş İttifaq dövründə İkinci Dünya müharibəsində həlak olan, itkin düşən döyüşçülər haqqında ensiklopediya çapa hazırlanırdı. Ensiklopediyanın respublikamız üçün nəzərdə tutulmuş 20 cildindən cəmi 3 cildi çap olundu. Biz işə başlayanda fəaliyyətimizi yalnız bunlarla məhdudlaşdırmadıq. Qərara gəldik ki, növbəti cildlərdə Qarabağda şəhid olmuş, itkin düşmüş vətəndaşlarımızdan da bəhs edək. Sonra bu siyahıya Əfqanıstan müharibəsində və Çernobıl faciəsində həlak olanlar da daxil edildi.

**- Redaksiyanızda Qarabağ müharibəsində itkin düşən, ermənilər tərəfindən əsir götürülən vətəndaşlarımızın taleyi ilə bağlı hansı işlər görülür?**

- İki ildən artıqdır Dövlət Təhlükəsizlik Xidməti və Dövlət Komissiyası ilə birlikdə əsir və itkin düşmüş vətəndaşlarımız haqqında kitab hazırlayırıq. Əməkdaşlarımızın bu kitabı yazarkən keçirdikləri sarsıntıları, ağrıacıları sözlə ifadə etmək çox çətindir. Əsirlər erməni qəsbkarlarının başlarına açdıqları oyunlardan, verdikləri işgəncə və əzablardan ürək ağrısı ilə danışırdılar. Ermənilərin qanlı əməlləri insanlıq adına yaraşmayan qara bir ləkədir. Onları dinlədikcə təəssüf hissləri keçirirsən ki, erməni işğalçılarının əzab və işgəncələrinə məruz qalanlar bizim vətəndaşlarımızdır. Həm torpaqlarımız işğal olunub, həm kənd və qəsəbələrimiz, şəhərlərimiz dağıdılıb, həm də vətəndaşlarımız həlak olub, əsir düşüb. Ürək ağrıdan bir fakt da odur ki, daşnakların zülm və istismarına məruz qalan vətəndaşlarımıza yalandan artıq Azərbaycan adlı bir ölkənin olmadığını deyirlər. Məqsədləri də budur ki, qoy əsirlikdə olanlar geri qayıtmağa yerlərinin olmadığını düşünsünlər. Deməli, ermənilər əsirlərə həm mənəvi, həm də fiziki əzab verirlər. Onlar üçün artıq həyatın bitdiyini təbliğ edirlər. Təbiidir ki, bütün bunlar bizim üçün çox ağrılı və əzablıdır. Nə qədər əzablı olsa da bir an olsun işlərimizdən qalmırıq. Çünki bu faciə bizim tariximizin qanlı səhifəsidir. Bütün bunları biz mütləq qələmə almaq, dünya dövlətlərinin, beynəlxalq təşkilatların diqqətinə çatdırmaq günümüzün ən aktual və zəruri işlərindən biridir. Ermənilərin zülm və işgəncələrini mütləq yazıb tarixləşdirməliyik. Tarixləşdirməliyik ki, gələcək nəsillər oxuya-oxuya dostumuzu, düşmənimizi yaxşı tanısınlar. Erməni işğalçılarına qarşı nifrətlə böyüsünlər. Çünki yeri gələndə nifrət ən kəsərli silahdır. Əsir və itkinlərin ağrılı həyat yollarından bəhs edən kitabın birinci cildi işıq üzü görüb. İkinci cildi bu ilin oktyabr ayında çapa veriləcək. Nəşri dörd cilddə nəzərdə tutulan bu kitablar, əslində erməni faşizminin üzünə oxunan ittiham aktıdır.

**- Qarşınızda heç də asan məsələlər dayanmayıb. Respublika Xatirə Kitabını qısaca olaraq necə qiymətləndirərdiniz?**

- Mənə elə gəlir ki, Respublika Xatirə Kitabı vətənpərvərlik mövzusunda yazılmış ən dəyərli ensiklopedik abidədir. Yaddaşımızın ağrı-acısı və sızıltısıdır. Müharibələri törədən, insanlara ölüm gətirənlər üçün ibrət dərsi verən bir kitabdır.

**- İşləriniz gərgin olduğu qədər də zəruridir...**

- Həm də məsuliyyətlidir. Biz hər bir şəhidin tərcümeyi-halını, döyüş yolunu yazarkən bir neçə mənbəyə müraciət edirik ki, səhvə yol verməyək. Çünki Respublika Xatirə Kitabı istinad edilən ən etibarlı mənbədir. Ona görə də işimizə böyük məsuliyyət və diqqətlə yanaşırıq. Xatirə kitabları vaxta, zamana baxmır.

**- Azərbaycanın Milli Qəhrəmanları haqqında hazırladığınız kitab da çox dəyərlidir. Hiss olunur ki, bu istiqamətdə də böyük işlər görmüsünüz.**

- Qəhrəmanlar haqqında yazılanlar bizim hər kəsin stolüstü kitabı olmalıdır. Çünki böyüməkdə olan nəsillər qəhrəmanlığı, igidliyi onlardan öyrənirlər. 2009-cu ildə Azərbaycanın Milli Qəhrəmanları haqqında kitabı nəşr etdik. Mən bu kitabı qəhrəmanlıq toplusu da adlandırardım. Bu insanlar torpaq və Vətən uğrunda şəhid olublar. Onlar haqqında yazmaq, qəhrəmanlarımızı yad etmək bizim ən müqəddəs borclarımızdan biridir.

**- Qarşıda yeni layihələriniz varmı?**

- Respublika Xatirə Kitabı Redaksiyasının ən maraqlı, geniş auditoriya qazanmış layihələrindən biri də "Şəhidlər ölməz, Vətən bölünməz"dir. Biz layihəni "Bakı-Xəbər" qəzeti ilə birgə həyata keçiririk. Layihə çərçivəsində Qarabağ müharibəsində şəhid olmuş zabit və əsgərlərimizin cəsurluğu tarixləşdirilir. Tanınmış yazıçı və publisistlərin yazdığı məqalə və oçerklər Xatirə kitablarına daxil edilməzdən əvvəl "Bakı-Xəbər" qəzetində dərc olunur. Biz bu yolla şəhid qəhrəmanlarımızı bir az da geniş tərənnüm etməyə, gənclərimizə vətənpərvərlik hissləri aşılamağa çalışırıq. Düşünürəm ki, məqsədimizə, məramımıza çatırıq. Gənc nəslin daha da vətənpərvər böyüməsi üçün şəhid qəhrəmanlarımızın döyüş və ömür yolu haqqında məlumatlar dərsliklərə salınsa yaxşı olardı. Tarix boyu həmişə belə olub: gənc nəsillər qəhrəmanlardan örnək götürüblər. Biz sınaqdan çıxmış bu yolu uğurla davam etdirməliyik.

**- Gələn il faşizm üzərində qələbənin 75-ci ilidir. Yəqin ki, Qələbə gününə sizin də töhfələriniz olacaq.**

- Qələbənin 75 illiyi ilə bağlı kitab çapa hazırlanır. Kitabda biz babalarımızın qəhrəmanlığı ilə bərabər, Bakı neftinin qələbənin qazanılmasındakı əvəzsiz rolundan da geniş bəhs edəcəyik.

**- Nəzakət xanım, sizin əsərlərinizin ana xəttini Vətənə sevgi, igidlik və qəhrəmanlıq təşkil edir.**

- Söz böyük qüvvədir. Vətənpərvərlik hisslərinin aşılanmasında poeziyanın rolu əvəzsizdir. Böyük Vətən müharibəsi illərində yazılan şeirlərin həm ön, həm də arxa cəbhədə böyük ruh yüksəkliyi yaratdığını hamımız gözəl bilirik. Bugünkü şair və yazıçılar da bu mövzuda gözəl əsərlər yaradırlar. Düşünürəm ki, döyüşən poeziyaya bütün zamanlarda ehtiyac var. Müharibə şəraitində yaşadığımız günlərdə biz bu mövzuya böyük diqqət yetirməliyik. Bu gün yalnız silahla deyil, qələmlə də döyüşməliyik.

**- Zabit və əsgərlərimizə ürək sözləriniz...**

- Mən gündən-günə güclənən, qürdətlənən ordumuzla fəxr edirəm, qürur duyuram. İnanıram ki, Azərbaycan əsgəri torpaqlarımızı işğaldan azad edərək tarix yazacaq.

**Söhbəti apardı:**
**Vahid MƏHƏRRƏMOV**

# Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, avqustun 6-da Füzuli rayonu ərazisində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik, onun səhra köməkçiləri Mixail Olaru və Saymon Tiller keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Oqnyen Joviç aparıblar.

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyənin təhlükəsizlik qüvvələri Suriyada İŞİD terrorçularına məxsus cəbbəxana ələ keçiriblər



Türkiyənin təhlükəsizlik qüvvələri Suriyanın Əl-Bab şəhərində İŞİD terror qruplaşmasına qarşı uğurlu antiterror əməliyyatı keçirib.

Əməliyyat nəticəsində İŞİD-ə məxsus böyük cəbbəxana aşkarlanıb. Burada ələ keçirilən partlayıcı maddələrin və onları hazırlamaq üçün istifadə olunan ləvazimatların ümumi çəkisi bir tondur.

## Əfqanıstanda partlayış: iki nəfər həlak olub



Əfqanıstanın Taymani rayonunda əldəqayırma partlayıcı qurğunun partlaması nəticəsində iki nəfər ölüb, üç nəfər xəsarət alıb.

Hücumun hədəfi ölkənin özəl televiziya şəbəkəsinin işçiləri olan avtobus olub. Xəsarət alanlardan iki nəfəri telekanal əməkdaşı olub.

## İranda qırıcı təyyarə qəzaya uğrayıb



İranın Buşehr vilayətinin Təngestan rayonunun ərazisində qırıcı təyyarə qəzaya uğrayıb.

Təngestan rayonunun qubernatoru Əbdülhəsən Rəfiipurun sözlərinə görə, qəzaya səbəb təyyarədə baş verən texniki nasazlıq olub.

Qırıcı təyyarəni idarə edən hər iki pilot qəzadan xilas ola bilib.

## Rusiyada hərbi anbarlarda partlayışlar nəticəsində 1 nəfər həlak olub



Rusiyanın Krasnoyarsk vilayətinin Açinsk rayonunda hərbi hissənin artilleriya mərmiləri olan anbarında baş vermiş partlayışlar nəticəsində 1 nəfər həlak olub, ətrafdakı yaşayış məntəqələrinin sakinləri təxliyə edilib. Rusiyanın Müdafiə naziri Sergey Şoyqu vəziyyətə nəzarət etmək üçün müavini Dmitri Bulqakovu insident yerinə göndərib.

Güc strukturlarının məlumatına görə, ərazidə 40 min ədəd artilleriya mərmisinin olduğu iki saha yanır. Partlayışların zərbəsindən ətrafdakı yaşayış evlərində pəncərələrin şüşələri qırılıb. Rəsmi məlumatlarda bildirilir ki, yaralanan 7 nəfər xəstəxanalara çatdırılıb. Rusiya FHN-in əməkdaşları hərbi anbarların 20 kilometr radiusunda əhalinin təxliyəsini həyata keçirirlər. Güclü yanğının söndürülməsi məqsədilə əraziyə yanğınsöndürənlər cəlb edilib.

## Suriya Hərbi Hava Qüvvələrinin bazasında güclü partlayış olub



Suriya Hərbi Hava Qüvvələrinin Homs əyalətinin Şayrat rayonunda yerləşən bazasında güclü partlayış olub. Bu barədə Suriyanın rəsmi SANA agentliyi bildirib. Qeyd olunub ki, insident partlayıcı materialların daşınması zamanı yol verilən ehtiyatsızlıq üzündən baş verib. Rəsmi agentlik bu sursatın vaxtının keçdiyini və başqa yerə göndərildiyi zaman partladığını qeyd edib. Onun məlumatına görə, hərbi bazada olan bir neçə nəfər həlak olub.

Lakin Al Arabia telekanalının saytında hüquq müdafiəçilərinə istinadla partlayış nəticəsində ən azı 12 hərbi qulluqçunun öldüyü bildirilir. Rəsmi Dəməşq bu məlumatı təsdiq etməyib.

**AZƏRTAC-ın materialları əsasında**

# Türkiyənin bir qrup hərbi qulluqçusu Azərbaycanda səfərdədir



*Azərbaycan və Türkiyə hökumətləri arasında hərbi-mülki heyətin sosial və mədəni səfərlərinin təşkilinin təmin olunması ilə bağlı razılığa əsasən, qardaş ölkənin bir qrup hərbi qulluqçusu və onların ailə üzvləri ölkəmizə səfərə gəlib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iki ölkə arasında mövcud olan qədim dostluğun, əməkdaşlığın genişlənməsi və əlaqələrin möhkəmləndirilməsinə xidmət edən səfər çərçivəsində türkiyəli heyətin Bakı, Gəncə, Şəmkir, İsmayıllı və Şəki şəhərlərinə ekskursiyası təşkil edilib.



Qonaqlar ölkəmizin qədim tarixi, xalqımızın zəngin mədəni irsi, adət-ənənəsi ilə yaxından tanış olub, milli mətbəximizin yemək və şirniyyatlarından dadıblar.

# Polşa jurnalında Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyi ilə bağlı məqalə dərc olunub

*Polşanın ingilisdilli Yeni Şərqi Avropa jurnalında Azərbaycanın Qoşulmama Hərəkatına (QH) sədrliyi ilə bağlı məqalə dərc olunub.*

Bu barədə AZƏRTAC-a Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzindən məlumat verilib. Mərkəzin eksperti Vasif Hüseynovun müəllifi olduğu məqalə QH-nin müasir beynəlxalq münasibətlər sistemindəki əhəmiyyətindən bəhs olunur, Azərbaycanın Hərəkata üzvlüyünün ölkəmizin xarici siyasi maraqlarına uyğun olduğu diqqətə çatdırılır.

Müəllif bildirir ki, 120 dövlətin üzv olduğu, 17 dövlətin və 10 beynəlxalq təşkilatın müşahidəçi kimi qoşulduğu Qoşulmama Hərəkatı Soyuq Müharibənin gərgin dövründə - 1961-ci ildə hərbi bloklara qoşulmamaq prinsipi ilə yaradılıb. "Sovet İttifaqının süqutundan sonra bir müddət düşünülürdü ki, Hərəkat artıq öz əhəmiyyətini itirib. Lakin üzv dövlətlərin üzləşdiyi müxtəlif xarakterli (hərbi, siyasi, iqtisadi, iqlim dəyişikliyi və s.) yeni çağırışlar beynəlxalq əməkdaşlığın əhəmiyyətini artırıb və QH-ni bu əməkdaşlığın təşviq edilməsi üçün əlverişli bir platforma kimi yenidən canlandırıb", - deyə müəllif yazır.

Vasif Hüseynov QH-nin bu ilin 25-26 oktyabr tarixlərində Bakıda keçiriləcək 18-ci sammitində Azərbaycanın hərəkata 3 illik sədrlik dövrünün başlamasını ölkəmiz üçün mühüm diplomatik uğur kimi səciyyələndirib.

## *Hərbi texnikalar, silahlar*

# Azərbaycanın aviasiya bombaları

*Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin istehsal etdiyi aviasiya bombaları düşmənin zirehli texnikasını və canlı qüvvəsini məhv etmək üçün nəzərdə tutulub.*



Bunlar təyyarə və helikopterdən atılan aviasiya bombalarıdır. Qəlpəli-fuqas bombalarının ən kiçiyinin çəkisi 25, ən böyüyünün isə 500 kq-dır.

Bunlar həm də sərbəst düşən və idarəolunan aviasiya bombalarıdır. Sursatlar arasında 100 və 250 kiloqramlıq bombalarla yanaşı, betondələn aviasiya bombaları da var. Aviasiya bombalarının atıldığı hündürlükdən asılı olaraq dağıdıcı məsafəsi dəyişir.

"QFAB-100SAB" qəlpəli-fuqaslı aviasiya bombası verilən informasiya əsasında GPS-İNS naviqasiyası ilə hədəfə yönəlir. Uçuş məsafəsi aşağı hündürlükdən buraxıldıqda 20, yuxarı hündürlükdən buraxıldıqda 40, mühərriklə atıldıqda isə 65 kilometrdir. Partlayış zamanı bombadan ətrafa 5 mindən artıq qəlpə yayılır.

Uzunluğu 3300 mm, diametri 240 mm, kütləsi 270 kiloqram olan "QFAB-250 LG" aviasiya bombası 12000 metrədək məsafədən hədəfi maksimum 10 metr sapma ilə vurmaq imkanına malikdir. "QFAB-250 LG" aviasiya bombası NATO standartlarına uyğun hazırlanıb.

Azərbaycanda istehsal edilən FAB tipli aviabombalar postsovet məkanında istehsal edilən analoqlarından dağıdıcı gücünə, daşınmasının təhlükəsizliyinə görə fərqlənir. Eyni zamanda, bombaların müxtəlif tip helikopterlərə (Mi-17, Mi-35M), habelə təlim və döyüş təyyarələrinə inteqrasiyası təmin olunub.

MSN tərəfindən təkmilləşdirilərək istehsal olunan 50, 100 və 250 kq-lıq təlim aviasiya bombaları (TAB) isə xarici analoqlarından daha uzunömürlü və çox istifadə edilə bilməsi, həmçinin dəqiqliyi ilə fərqlənir.

**Hazırladı:
Svetlana YUSUBOVA**

# İdman

## Yunan-Roma güləşi üzrə yığmamız Bolqarıstanda keçirilən dünya çempionatında ikinci yeri tutub



Yunan-Roma güləşi üzrə yığmamız Bolqarıstanın paytaxtı Sofiyada keçirilən dünya çempionatında ikinci yeri tutub.

Sofiyaya yollanan səkkiz güləşçidən beşi fəxri kürsüyə qalxıb. Belə ki, Nihad Məmmədli (55 kq) və Laçın Vəliyev (92 kq) dünya çempionu olub. Ziya Babaşovla (48 kq) Elmir Əliyev (51 kq) gümüş, Fərid Sadıxlı (45 kq) bürünc medal qazanıb.

Beləliklə, güləşçilərimizin uğurlu çıxışı nəticəsində millimiz 123 xalla komanda hesabında dünya çempionatını ikinci sırada başa vurub.

## İdmançılarımız Uşu üzrə Açıq Balkan Çempionatında uğurlu çıxış ediblər



Türkiyənin paytaxtı Ankarada keçirilən Uşu üzrə Açıq Balkan Çempionatına yekun vurulub.

Ölkəmizi yarışlarda təmsil edən yeniyetmələrdən Amal Məmmədov (40 kq), Pərviz Abıyev (42 kq) və böyüklər arasında dördqat Avropa çempionu, IV İslam Həmrəyliyi Oyunlarının gümüş və bürünc mükafatçısı Elçin Eminov (56 kq) çempionatda bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

## Yeniyetmələrdən ibarət taekvondo üzrə millimiz dünya birinciliyində 10 idmançı ilə təmsil olunacaq



Azərbaycanın yeniyetmələrdən ibarət taekvondo üzrə milli komandası avqustun 7-10-da Özbəkistanda keçiriləcək dünya birinciliyində iştirak edəcək.

Yarışda yığmanın üzvləri yeddi oğlan və üç qız taekvondoçu ilə təmsil olunacaq və 10 çəki dərəcəsində mübarizə aparacaqlar.

Milli komandamızın baş məşqçisi Səbuhi Zülfüqarov və böyük məşqçi Sənan Həşimov oğlan taekvondoçulardan Şamil Mirzəyev (33 kq), Nihad Məmmədzadə (37 kq), Pünhan Mürsəlov (41 kq), Kənan Əmiraslanov (45 kq), Fərid Əliyev (49 kq), Nizami Hacıyev (53 kq) və Asim Əlimova (65 kq-dan yuxarı) şans verəcək.

Qızlardan isə Zemfira Həsənzadə (29 kq), Nəzirə Ölməz (47 kq) və Səmmərux Osmanova (51 kq) yığmanın heyətində yer alacaq.

## Daha iki ədalət təmsilçimiz beynəlxalq dərəcəli hakim adına layiq görülüb



Polşanın Poznan şəhərində Beynəlxalq Cüdo Federasiyasının hakimlər üçün seminarı keçirilib.

Azərbaycan Cüdo Federasiyasına istinadən xəbər verir ki, seminarda ədalət təmsilçiləri beynəlxalq dərəcəli hakim adı almaq üçün imtahan veriblər.

Nəticədə Azərbaycanın ədalət təmsilçilərindən Rəşad Əliyev və Məhəmmədəli Quluzadə beynəlxalq dərəcəli hakim adına layiq görülüb. Onlar seminara Azərbaycan Cüdo Federasiyasının dəstəyi ilə qatılıblar. Namizədlərlə ilk öncə nəzəri və ingilis dili biliklərinin yoxlanması məqsədi ilə müsahibə keçirilib. Növbəti iki gün ərzində namizəd hakimlər tatami üzərində Avropa Kubokunun görüşlərini idarə edərək praktik imtahan veriblər. Hakimlərimiz Poznanda keçirilən gənclərin Avropa Kubokunun görüşlərini uğurla idarə ediblər.

**AZƏRTAC-ın materialları əsasında**

Polkovnik Ramazanov Nəsif Məmmədəli oğluna 1997-ci ildə verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 539
Nüsxə 3950